Əsir mələk

◆ Zəriflərin dünyası

“Bu gün mənim varlığım, ayaq üstdə dura bilməyim sanki möcüzədir. Öz-özümə düşünürəm ki, həqiqətən iradəli, dözümlü qadınam. O iradəni isə mənə Allah verib. Həyatımın o keşməkeşli yollarına çevrilib nəzər salanda deyirəm ki, o Dürdanə tamam başqa idi, indiki Dürdanə tamam fərqlidir. O vaxt fədakar, bu gün isə sadə bir qadındır. Nə yaşı var idi ki, o Dürdanənin... Heç 20 yaşı belə yox idi... 8 gün erməni zindanında qaldı...

Bu zindana qara hörüklü bir qız kimi ayaq basdı, 8 gündən sonra saçları ağarmış, bu dünyanın bütün ağrı-acısını görmüş 80 yaşlı bir qadın kimi çıxdı...”

Dürdanə Ağayeva

1972-ci ildə Xocalıda anadan olub.

1985-ci ildə atasını ürək əməliyyatı zamanı erməni həkimlər öldürüblər. O vaxtdan qardaşları Elşad, Elman və Eldənizlə yetim qalıblar və ana babalarının himayəsində böyüyüblər.

17 yaşından Xocalıda rabitə qovşağında telefonçu işləyib.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə meşədə ermənilərə əsir düşüb.

Əskəran şəhərindəki polis bölməsində sözlə yazıla bilməyəcək məşəqqətlərə, işgəncələrə məruz qalıb.

Dürr dənəsi...

Qadın, sən paklığın, saflığın təcəssümü, bir incisən. Sən böynu bükük bənövşənin gözlərində gizlətdiyi bir jaləsən, dürr dənəsisən...

Zərafətin, iradənin, gücün, əzmkarlığın simvolu, sadəcə anasan, ana...

Həm də bu dünyanın ən acı üzünü görmüş, amma heç zaman həyat mücadiləsindən geri çəkilməmiş bir ana, bir qadın, bir qız...

Müsibətlər yaşamısan, əzilmisən, ölümlə həyat arasındakı o incə xəttə yaxınlaşıb-uzaqlaşmısan, yanmısan, yox olmaq dərəcəsinə çatmısan, amma yenidən Simurq kimi öləziyən küllərindən közərmiş, alovlanmış qığılcımlarınla zülmətə, nahaqqa işıq saçmısan...

Xocalı faciəsinin şahidi, o günlərin ağrı-acısını bu gün də çiyinlərində daşıyan, erməni zindanında əsir saxlanan Dürdanə Ağayeva “Zəriflərin dünyası”nda taleyinə yazılmış qara yazıdan və onda həyat eşqini sönməyə qoymayan iradəsindən, əzmkarlığından danışır...

Nələr gördü, hansı faciələr yaşadı, amma bir dəfə də olsun gələcəyə inamını itirmədi, millətini, torpağını, xalqını sevməkdən vaz keçmədi. Bütün işgəncələrə dözdü, döyüldü, təhqir olundu, lakin sınmadı. Düşmənin təpiyi altında əyilib öz doğma torpağını öpdü, ondan güc aldı...

Fikirləş ki, arıq, gənc bir qızın bütün paltarlarını əynindən çıxarıb, lüt bədənini təpikləyirlər. Məni 3-4 erməni o qədər döymüşdü ki, elə bilmişdilər ölmüşəm, götürüb atmışdılar qarın üstünə. Çöldə don vurmuşdu, kirpiklərim bir-birinə yapışmışdı. Gözümü neçə saatdan sonra açmışam. Ancaq gecə qaranlıqda gözümü açanda, məni saçımdan tutub sürüyən erməni dedi ki, sən hələ ölməmisən? Hissiyyatım tamamilə yox idi, əlimi əlimə vururdum, heç nə hiss etmirdim. Bircə dilim tərpənirdi...

Rabitəçi olduğumu öyrənmişdilər, buna görə lap ağır işgəncə verirdilər mənə...

Növbəti dəfə, gecəyarı qaldığım otağın qapısını bir erməni hərbçi açdı. O, mənə əmr edərək bildirdi ki, ardımca gəl. Məni ayaqyoluna salıb əlimi, qolumu bağlayıb, başqa bir kəndirlə boğazımdan qapıya bağladı. O qədər döydü ki, huşsuz vəziyyətdə orada qaldım...

O acılarla mənim həyatım dəyişdi. Orada öyrəndim ki, İlahi, insan hər əzaba dözərmiş...

Mən də dözdüm...

Qız ana taleyi yaşayar...

- Üç qardaşın bir bacısıydım. Atamı itirəndə 13 yaşım var idi. Onun yoxluğuna alışa bilmir, fikir edirdim. Bütün ailəmizin yükü anamın üzərinə düşmüşdü, həm maddi, həm mənəvi cəhətdən. O, çox sakit və zəhmətkeş qadın idi. İndi düşünürəm ki, anamda olan həmin iradə, dərdlərə dözüm mənə də keçmişdi. Göz açan gündən onu hər zaman zəhmətkeş gördüm. Həmişə anamın əllərinə baxanda, onun o əziyyətini görəndə pis olurdum. Evdar qadın idi, həyətdə əkib-becərdiyi meyvə-tərəvəzi aparıb bazarda satmaqla bizi dolandırırdı.

Görürdün ki, evdə nəsə çatmayanda çox pis olur, ürəyinə salırdı. Soruşurdum ki, ay ana, niyə bikefsən... Deyirdi, heç nə... O, bizə bildirmirdi, amma gözlərində olan qəm-qüssə hər şeyi danışırdı... Mən də uşaqlıqdan anamda gördüyüm o fədakarlıqlardan götürürdüm. Deyirlər, qız ana taleyi yaşayar...

Telefonçu qız

- Anam təkbaşına 4 uşağa baxdı, böyütdü, amma zaman elə gətirdi ki, o bizə ali təhsil verə bilmədi. Müharibə dövrünə düşdük. Mən orta məktəbi bitirəndən sonra Xocalı Telefon Qovşağında telefonçu işləməyə başladım. Elə uşaqlıqdan “Telefonçu qız” filmindəki Mehribanın vurğunu idim. Buna görə də rabitəçiliyə xüsusi bir həvəsim var idi. Komutatorun arxasında oturanda elə bilirdim ki, dünya mənimdir. 20 yaşıma qədərki həmin dövr mənim bu dünyada yaşadığım ən xoşbəxt anlar, günlər, illər idi...

Biz ana babamızla qalırdıq. Yadımdadır ki, ilk maaşımı gətirib babama verdim. Babam pulu öpüb qoydu gözlərinin üstünə, anam da sevincindən ağladı. Qardaşlarım məndən kiçik olduğu üçün o gündən anama mən dayaq oldum. Anam bəzən deyirdi ki, Dürdanə, elə bilirəm atan həyatdadır. O, atamın yoxluğunda çəkdiyi mənəvi ağrını bir növ mənimlə ovudurdu...

17 yaşım vardı, arıq, qara bir qız idim, sevmək-sevilmək haqqında heç düşünmürdüm...

Yaşıdlarım texnikumda, institutda oxuyurdu, mən isə düşünürdüm ki, anama kömək edim, qardaşlarımın əlini çörəyə çatdıraq, sonra gedib Bakıda Rabitə Texnikumunda oxuyacam...

Nə biləydim ki, alnıma qara tale yazılıb...

Qəlb, can, güllə yarası

- Mən özümdən bir ana kimi bəhs edə bilmirəm, çox kövrəlirəm...

Çünki çox əzablı yollardan keçdikdən sonra ana olmuşam...

Bu gün də düşünürəm ki, mən anamdan o dözümü, iradəni götürməsəydim, bu gün yaşamazdım. Ağlıma gəlməzdi ki, elə bir faciədən, elə bir zindandan mən qurtararam. Bilirsiniz, necə çətin idi... Çətin yox, çətin asan sözdür. Hər saniyə ölüm idi. Hər saniyə Allaha əl qaldırırdım ki, al canımı, daha dözə bilmirəm. Ac-susuz, yaralı, ayaqyalın vəziyyətdə əsir həyatı yaşa... İnsan hər şeydən ürəkli danışa bilir, amma mən o günlərimdən danışa bilmirəm...

Qəribədir ki, həmişə əsir düşməkdən qorxurdum. Müharibə dövrü idi və bu fikirlər istər-istəməz ağlıma gəlirdi, məni qorxudurdu, ürpənirdim...

Elə bildim ki, qadınlardan təkcə mənəm əsirlikdə, amma...

- Xocalıya hücum olunan gün biz meşəyə üz tutduq. Buz kimi havada qarı yara-yara Ağdam istiqamətinə qaçırdıq. Qara Qayanın üstündə əsir düşdük. Ermənilər birdən qarşımızı kəsib bizi atəşə tutdular. Xocalılıların yükü balaları idi. Elə bir ana yox idi ki, onun bağrında övladı olmasın. Mən ayağımdan güllə yarası aldım. Anamı və qardaşlarımı itirdim. Sürünə-sürünə gəlib çıxdım xəndək kimi bir yerə.

Uzandım ora, yanımda hamilə gəlin vardı əri ilə... 19 yaşı olardı, yazığı başından vurub öldürdülər. Biz sürünə-sürünə gedirdik, ermənilər qarşımızı kəsib dedilər ki, “qalxın ayağa, sizi öldürməyəcəyik”. Onlar Azərbaycan dilində təmiz danışırdılar. Mən də qardaşım Elşaddan tutub gedirdim. Palçığa bata-bata, yıxıla-yıxıla gəlib çatdıq Əsgəran rayonuna.

Hamımızı üzüqoylu asfaltın üstünə uzatdılar. Bizi hərbçilərin, döyüşçülərin yığışdığı yerə apardılar. Əvvəl elə bildim ki, qadınlardan təkcə mənəm əsirlikdə. Amma orda nə qədər qız-gəlinlərimizi gördümsə, dəhşətə gəldim...

Erməni dedi ki, sən hələ ölməmisən?

- Allah məni anamın kimsəsizliyinə bağışladı. Fikirləş ki, arıq, gənc bir qızın bütün paltarlarını əynindən çıxarıb, lüt bədənini təpikləyirlər. Məni 3-4 erməni o qədər döymüşdü ki, elə bilmişdilər ölmüşəm, götürüb atmışdılar qarın üstünə. Çöldə don vurmuşdu, kirpiklərim bir-birinə yapışmışdı. Gözümü neçə saatdan sonra açmışam. Ancaq gecə qaranlıqda gözümü açanda, məni saçımdan tutub sürüyən erməni dedi ki, sən hələ ölməmisən? Hissiyyatım tamamilə yox idi, əlimi əlimə vururdum, heç nə hiss etmirdim. Bircə dilim tərpənirdi...

Rabitəçi olduğumu öyrənmişdilər, buna görə lap ağır işgəncə verirdilər mənə...

Növbəti dəfə, gecəyarı qaldığım otağın qapısını bir erməni hərbçi açdı. O, mənə əmr edərək bildirdi ki, ardımca gəl. Məni ayaqyoluna salıb əlimi, qolumu bağlayıb, başqa bir kəndirlə boğazımdan qapıya bağladı. O qədər döydü ki, huşsuz vəziyyətdə orada qaldım...

O acılarla mənim həyatım dəyişdi. Orada öyrəndim ki, İlahi, insan hər əzaba dözərmiş...

Mən də dözdüm...

O faciədən sonra Bakıya gəldim. Qəlb yarası, can yarası, güllə yarası, hər biri var idi məndə. Əməliyyat edərək ayağımdakı gülləni çıxardılar. Başım, böyrəklərim soyuqlamışdı, ürək ağrısı tapmışdım...

Bir qadının əsirliyindən danışması özü böyük faciədir

- Bilirsiniz, əsir düşmüş bir qadının əsirliyindən danışması özü böyük faciədir...

Yaddaşından, xatirələrindən dırnağınla qazıyıb qopartmaq istədiyin o hadisələri necə dilinə gətirə bilərdin ki...

Xeyli müddət özümə qapandım, heç nə danışmadım, susdum...

Üç dəfə həyatıma qəsd etdim, amma hələ qismətimdə ölmək yox imiş...

Sanki qəlbimdə daş kimi asılmış bir mücrü var idi, içi acı, dəhşət, göz yaşı ilə dolu bir mücrü...

Bir müddət Xocalı İcra Hakimiyyətində makinaçı kimi çalışdım. Sonra düşündüm ki, mən axı rabitəni çox sevirəm.

Aztelekoma müraciət etdim və bildirdim ki, mən işsiz dayana bilmirəm. Məni göndərdilər Xırdalanda bir neçə il telefonçu işlədim. Həmin qulaqcıq, həmin kabinet, həmin abonentlər və yenə həmin “Alo”...

O komutatorun arxasında oturanda mənə elə gəlirdi ki, Xocalıdayam. Sanki hər dəfə “Alo” deyəndə Əlif Hacıyevlə, Elman Məmmədovla danışıram. Yenidən telefonçu işləməyim mənə yeni nəfəs, ruh verdi. Ona qədər isə yaşamaq istəmirdim. Axı mən kimə lazımam, nəyə lazımam deyə düşünürdüm. Bütün bunlar mənim ovaxtkı düşüncələrim idi. Amma gördüm ki, yox, həyat davam edir. Mən Xocalıdakı işimi Bakıda davam etdirə bildimsə, bunu bacardımsa, həyatla mübarizə aparıb hər şeyə nail omalıyam.



Erməninin çəkdiyi dağ qarşımı kəsirdi

- Ailə qurmaq haqqında isə düşünmürdüm. Qarşıma məqsəd qoymuşdum ki, heç zaman ailə qurmayacağam və anamla nənəmə baxacağam. Ürəyimdə də kimməsə qarşı bir sevgi yarana bilmədi. İçimdə böyük bir sıxıntı var idi, hələ ürəyimin o hissəsindəki yara qaysaq bağlamamışdı, qanayırdı...

Sevgi məsələsində çox əziyyət çəkdim, məni sevən də oldu, yox dedim, ailə qurmaq fikrində deyildim. Əslində dilim yox deyirdi, bu yox sözünün arxasında elə böyük faciə dayanırdı ki, o bəlaya görə addım ata bilmirdim.

Ətrafıma baxırdım - sevənlərə, gənc analara ... O hissləri yaşamaq kimin qəlbindən keçməz ki?! Kim istəməz ki, isti yuvası, güvəndiyi güclü bir sevdiyi olsun. Mən isə bütün bunları ürəyimlə danışırdım, dilim isə susurdu...

Nənəmlə rəfiqə idim. Hər şeyimi ona danışırdım. Amma anama danışa bilmirdim, utanırdım ondan. Nənəm mənə deyirdi ki, ay bala, bu qədər istəyənin var, birinə get. Deyirdim, nənə, yox, o əsirlik günləri qabağımı kəsir. Ermənin mənə çəkdiyi dağ qarşımı kəsir...

İşdə növbədə olduğum bir gün saçlarına yenicə dən düşmüş bir kişi gəldi və məndən nömrə yığmağımı istədi. Bir neçə gündən sonra o, yenə gəldi və həmin insanla həyat yollarımız beləcə kəsişdi...

Axı mən də sevmək, yuva qurmaq, ana olmaq istəyirdim...

- Alın yazısı deyirlər, Allah mənim alnıma çox şey yazıbmış, amma yaxşı günlər də yazıbmış...

O məndən soruşanda ki, hansı rayondansan, təbii ki, o zaman mən ona demədim ki, Xocalıdanam. Əl çəkmədi məndən, dəfələrlə israr etdi, amma dedim ki, yox, mən ailə qura bilmərəm...

Bir gün mənə dedi ki, sənin içini ağırlaşdıran nədir? De bilim!

Bütün başıma gələnləri ona danışdım. O güc mənə heç zaman verilməmişdi, amma həmin gün Allah elə bil mənə qüvvət verdi və danışdım.

İlhamın gözləri yaşardı və dedi ki, kişi kimi söz verirəm, sənin əllərini heç zaman buraxmayacam...



Ailələrimiz tərəfdən müəyyən narazılıq var idi. Buna görə də bizim iki yolumuz qalırdı, ya ayrılmalıydıq, ya da hər kəsə rəğmən birləşməliydik. Biz ikinci yolu seçdik. İlhamı anamın yanına gətirib tanış etdim, o isə dedi ki, yox, mən səni ona verə bilmərəm...

Axı, yazıq anam nə biləydi ki, qızı ürəyində nələr daşıyır? Mən anama dərd vermək istəməmişəm, ölən günə, son nəfəsinə qədər mən ona, o əsirlikdəki zindan həyatımı danışmadım, danışa bilmədim...

“Ana, mən utanırdım, sənə deyə bilmirdim, axı mən də ailə qurmaq istəyirəm, mən də ana olmaq istəyirəm...” - deyə anama məktub yazıb İlhamla birlikdə evdən getdim...

Son kədər, ilk sevinc...

- Yoldaşım məni çox sevirdi... Hər zaman mənə “qəhrəman qadınım” deyirdi... Deyirdi səndəki dürüstlüyü, mərdliyi sevirəm...

Övladım - Ləmanım gec dünyaya gəldi. Təbii ki, məlum məsələdir, elə bir faciədən çıxan qadının çox problemi ola bilərdi, güclü travma almışdım.

Bir müddət də bala həsrəti çəkdim... Həyatdan yenə əlimi üzmüşdüm, deyirdim ki, bir qadının başına gələcək ən böyük bəlaları yaşamışam, indi də analıq hissini dada bilməyəcəm, övlad üzünə həsrət qalacam...

Yoldaşım isə hər zaman mənə ürək-dirək verirdi, çoxlu həkimə aparırdı, deyirdi ki, ana olmaq sənin də haqqındır.

5 ildən sonra Allah mənə övlad sevinci yaşatdı. Çox gözəl ailəm var idi, 20 il İlhamla birgə xoşbəxt yaşadıq, övladımızı böyütdük. Biz onunla həyat yoldaşı olmazdan əvvəl dost idik. Aramızda dostluqdan yaranan hörmət var idi.

Çox xoşbəxt qadın oldum ki, həyat yoldaşım məni ucaltdı, məndə həyat eşqi yaratdı...

Təəssüf ki, indi o, mənimlə deyil, 2 ildən artıqdır ki, xərçəng xəstəliyindən vəfat edib.

Allah onu mənə hədiyyə etmişdi, o isə mənə gözəl bir balanı hədiyyə qoyub getdi...

Əsir düşmüşəm deməyə utandım...

- 35 yaşıma qədər Xocalı barədə heç kimlə danışmadım, müsahibə vermədim. Ortaya çıxıb əsir düşmüşəm deməyə cəsarətim çatmadı. Utandım...

Necə müsahibə verərdim ki, əsir düşdüm, bu hadisələr oldu, bunu bacarmırdım. O gücü özümdə tapa bilmirdim...

Bir gün məni tədbirə dəvət edəndə yoldaşım mənə dedi ki, niyə getmirsən, nədən çəkinirsən? Orada sən elinin, torpağının faciəsindən danışmalısan. Qoy dünya onların vəhşiliklərindən xəbərdar olsun, sən şahidsən. Mən onun sözlərindən güc aldım və həmin tədbirdə etdiyim çıxışdan sonra mənə fədakar rabitəçi adı verdilər.

Onda qürurlandım...

Daha sonra düz bir il hər gecə o keçmiş günlərimi bir gündəlik kimi yazmağa başladım.

İndi hər birimizdə yaddaşsızlıq var, amma gecəyarısı da məni oyadıb soruşsalar ki, əsirlikdə hansı hadisələr oldu, hər hadisəni müfəssəl danışaram. Heç zaman yadımdan çıxmır, həkk olunub beynimə...

İtirdiyim gəncliyim, sağlamlığım...

- Yazdıqlarım qalın kitab həcmindədir. Xocalının işğalından 25 il keçirdi. Türkiyədə İnsana Yardım Vakfından dəvət aldım və ilk dəfə yoldaşım da bizimlə getdi. O, onlara dedi ki, Dürdanə xatirələrini yazıb, bəlkə onu kitab halına salasınız. Onlar buna çox böyük maraq göstərdilər və tezliklə türk dilində “Erməni zindanında səkkiz gün” adlı kitabım işıq üzü gördü.

Daha sonra Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva həmin kitabın Azərbaycan dilinə tərcümə olunmasına kömək etdi. Və Moskvada həmin kitabın təqdimatında Leyla xanım xoş sözlər dedi. Dedi ki, yaxşı ki, varsınız. Kaş ki, bu faciə başınıza gəlməyəydi və siz işıqlı həyatınızdan yazaydınız. Həqiqətən də o görüşdə çox qürurverici hisslər yaşadım. Bu kitab Moskvada da geniş yayıldı. Mənfur ermənilər isə sosial şəbəkədə mənə yazırdılar ki, bizə yalan deyirsən, böhtan atırsan...

Amma mən hər kəsə deyirəm ki, bunlar uydurma deyil, bu şahid bir gəncin yaşadıqları, gördükləridir. İtirdiyim gəncliyim, sağlamlığımdır...

Bu gün mən özümü ən güclü, ən dözümlü, iradəli və qəhrəman qadın kimi hiss edirəm. İndiki işim, davranışımla yox. Keçmişdəki Dürdanəyə verirəm mən bu adı...

Mən əsir qardaşımı ermənin əlindən alıb, anama gətirdim. Orada ermənilərə bir söz dedim. Dedim ki, əsirlikdə döydünüz məni, cavanlığımı, gəncliyimi aldınız, məhv etdiniz məni, həyatımı, sağlamlığımı itirdim, bir qardaşımı verin mənə...

Ətrafıma baxırdım - sevənlərə, gənc analara ... O hissləri yaşamaq kimin qəlbindən keçməz ki?! Kim istəməz ki, isti yuvası, güvəndiyi güclü bir sevdiyi olsun. Mən isə bütün bunları ürəyimlə danışırdım, dilim isə susurdu...
Nənəm mənə deyirdi ki, ay bala, bu qədər istəyənin var, birinə get. Deyirdim, nənə, yox, o əsirlik günləri qabağımı kəsir. Ermənin mənə çəkdiyi dağ qarşımı kəsir...
İşdə növbədə olduğum bir gün saçlarına yenicə dən düşmüş bir kişi gəldi və məndən nömrə yığmağımı istədi. Bir neçə gündən sonra o, yenə gəldi və həmin insanla həyat yollarımız beləcə kəsişdi...

Dedim və döyüldüm həmin an, amma ondan sonra qardaşımı verdilər...

İndi “Xocalının fədakar qadınları” adlı ikinci kitabımı yazıram...

Ağ gəlinlik geyinmədim

- Ürəyimdə çox arzular qaldı, elçi, nişan, gəlinlik, toy, heç nə görmədim.

Bilirsiniz, nə heç zaman yadımdan çıxmır?.. Məni əsir alıb Əsgərana aparanda ermənilər soruşdu ki, eviniz hansıdır, - göstərdim. Məni apardılar həyətimizə. Evimiz ikimərtəbəli idi. Qapı, pəncərə, divarlar, pilləkən uçmuşdu. Başladılar məni döyməyə, arxadan məni təpiklə, zəncirlə vururdular. O an gözlərim uçmuş pilləkənimizə sataşdı və qeyri-ixtiyari düşündüm ki, kaş bunlar hamısı bir yuxu olaydı, anam, atam, doğmalarım burada olaydı, mən də ağ duvaqla bu pilləkənlə düşəydim...

And içmişəm, şahidinə çevrildiyim Xocalı faciəsini bütün çılpaqlığı ilə dünyaya car çəkəcəm, daha susmayacam...

Özümə söz vermişəm, daha ağlamayacam, ürəyimə daş, qaysaq bağlamamış yaralarıma köz basacam...

Qızımda yaşadacam arzularımı, elə biləcəm o Dürdanə heç olmayıb, başına heç bir müsibət gəlməyib. O elə indiki Ləman olub, gənc, saf, təmiz, alnıaçıq, həyat dolu...

Sarı gəlin

Ağlama, Sarı gəlin, qoy ruhsuzlar, ana laylası belə oğurluq olan, mənəviyyatsızlar utansın...

Ruhların azad olduğunu, onu heç bir zəncirə bənd etmək, üzərinə çirkab atmaq, ləkələmək, ləyaqətini alçaltmaq mümkün olmadığını anlamadıqları üçün...

Dik tut başını, sabaha ümidimiz, gələcəyə həyat bəxş edənimiz, düşmənə göz dağı qəhrəman qızlarımızın, igid oğullarımızın anası, Azərbaycan qadını, dürr dənəmiz, Dürdanəmiz...

Yasəmən MUSAYEVA,
“Azərbaycan”